# Ceyhun BAYRAMOV: "Azərbaycanla münasibətlərin normallaşdırılması üçün Ermənistan üçtərəfli bəyanatdan irəli gələn öhdəliklərinə əməl etməlidir"

"Azərbaycan Ermənistanla münasibətlərin normallaşdırılmasının tərəfdarıdır. Bunun üçün Ermənistan üçtərəfli bəyanatdan irəli gələn öhdəliklərə əməl etməlidir. Azərbaycan öz tərəfindən üzərinə düşən bütün öhdəlikləri yerinə yetirir".

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Slovakiya Respublikasının xarici və Avropa işləri naziri İvan Korçokla keçirdiyi birgə brifinqdə bildirib.

C.Bayramov vurğulayıb ki, postmünaqişə dövründə Azərbaycan tərəfindən işğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində genişmiqyaslı layihələrə start verilib. Bu sahədə vacib



istiqamətlərdən olan ərazilərin minalardan təmizlənməsi işində Azərbaycanla Slovakiya arasında əməkdaşlığa başlanılıb. Yaxın vaxtlarda Slovakiyadan Azərbaycana 7 ədəd minatəmizləyən aparat göndəriləcək.

Xarici işlər naziri həmçinin bildirib ki, işğaldan azad olunmuş ərazilərin bərpası və oraya əhalinin qaytarılması ölkəmiz üçün prioritet məsələdir. Hazırda bu sahədə layihələr həyata keçirilir.

Azərbaycan Respublikası Hökuməti ilə Slovakiya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında sazişin imzalanması nəzərdə tutulur. C.Bayramov deyib ki, ölkələrimiz arasında ikitərəfli və beynəlxalq platformalarda əməkdaşlığın perspektivləri, iqtisadi sahədə münasibətlərin potensialı müzakirə edilir.

Bildirilib ki, ölkələrimiz arasında müxtəlif sahələri əhatə edən 10-dan çox saziş hazırda Azərbaycan və Slovakiya tərəfində baxılmaqdadır.

Azərbaycan.- 2021.- 20 oktyabr.- S.2.